«XATİRƏ»Nİ YARADAN, YAŞADANLAR, VƏTƏN, TORPAQ UĞRUNDA ŞƏHİD OLANLAR ƏBƏDİ YAŞAYACAQLAR

SSRİ-nin alman faşizmi üzərində rəşadətli qələbəsinin 79-cu ili ərəfəsində Azərbaycan radiosunda bacarıqlı jurnalistimiz Mahəddin Əsgərin hər həftənin ikinci günü apardığı gözəl, maraqlı «Sözdən-söz» verilişlərindən birinə 1993-cü ildə ulu öndərimiz Heydər Əliyev tərəfindən təsis edilmiş «Xatirə» kitabının baş redaktoru Nəzakət xanım Məmmədova dəvət edilmişdi.





İstedadlı jurnalist, gözəl şair, Qarabağ müharibələrində iştirak etmiş iki komandir oğulun anası «Xatirə» kitabının məqsəd və məramı, kitabın redaksiyasına 1997-ci ildə «Azərbaycan Milli Ensiklopediyası»nın İçəri Şəhərdəki binasında, ikinci mərtəbədə yer ayrılması və heyəti haqqındakı Prezidentin sərəncamı barədə danışdı. İkinci dünya müharibəsində iştirak etmiş altı yüz mindən çox Azərbaycan vətəndaşının yarısından çoxu Vətən uğrundakı döyüşlərdə qəhrəmancasına həlak olmuşdu. Onların əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə ötən müddət ərzində bu kitabın xeyli cildi nəşr edilmişdi. Bu, Qarabağ müharibəsində həlak olmuş oğul və qızlarımıza da şamil edilir. Vətənimizin, dövlətimizin, xalqımızın öz övladlarına verdiyi bu dəyər diqqətəlayiqdir.

Mənim bir dayım 1943-cü ildə, iyul ayının 26-da Vətən müharibəsində qəhrəmancasına həlak olmuşdur. Veriliş əsnasında redaksiyaya telefonla (497-51-83) zəng etsəm də, Nəzakət xanımla əlaqə yarada bilmədim ki, ona bu böyük, dəyərli iş üçün ailəmizin adından təşəkkürümüzü bildirim.

Vaxtılə «Azərbaycan Sovet Ensiklopediyası»nda işləmiş xalam qızı Afaq xanım Məmməd qızı Rüstəmbəyliyə zəng edib redaksiyada çalışan rəfiqələrindən öyrənib dayım Pişnamazzadə Cavad Fərəculla oğlu haqqında gedən yazının hansı cilddə və hansı səhifədə olması barədə mənə məlumat verməsini xahiş etdim.

Sağ olsunlar, sədaqətli rəfiqələr iki gündən sonra kitabın 12-ci cildinin 220-ci səhifəsində gedən dayım haqqındakı bu məlumatı ona göndərdilər:

«PİŞNAMAZZADƏ CAVAD FƏRƏCULLA oğlu. 1921-ci ildə Şəki r-nunda doğulmuşdur. Azərb. Bakı ŞHK-ndan orduya çağırılmışdır. K.İ. 4-cü t. or. 11-ci t.korp. 136-cı t. briq.-nın kom.-i. Həlak olmuşdur (26.07.1943). Rus.Fed.Oryol vil. Bolxov r-nunun Vetrovo k.-ndə dəfn edilmişdir».

Mən bu məlumatı oxuyanda dayımdan «qara kağızın» gəlməsi anı gözlərim önündə canlandı. Poçtalyonumuz 60-65 yaşlı xoşsima rus qadın cəbhə komandirinin atasına göndərdiyi məktubu oxuyanda babam çox sarsıldı. Və bərkdən dedi: «Heyif səndən, komandir oğlum! Sən mənim belimi qırdın...» Bu xəbər bütün ailəmizə, qohumlara, tanış-bilişə böyük zərbə oldu.

Bir neçə gündən sonra cəbhə komandirindən babama ətraflı bir məktub və onun bəzi əşyaları kiçik banderolda göndərildi. Cəbhə qəzetlərində Cavad dayım haqqında elə sözlər yazılmışdı ki, adam fərəhindən və kədərindən bilmirdi nə etsin.

Dayım qısa müddət ərzində göstərdiyi şücaətə görə iki dəfə «Qızıl ulduz» ordeni və fədakar, cəsarətli döyüşcü olması barədə bir neçə medalla təltif edilmişdi.

Mahəddin Əsgərlə olan görüşdə Nəzakət xanım Məmmədovanın Qarabağ döyüşlərində fədakarcasına iştirak etmiş zabit oğlanlarına həsr etdiyi «Komandir oğlum» adlı şeirinə bəstələnmiş mahnı ifa olundu. Gözlərim önündə babamın siması gəlib canlandı. Özümü saxlaya bilmədim. Dedim, heyif səndən, mənim əziz dayım, yaxın dostum Cavad. Sən necə gözəl insan idin...

Komandirin məktubundan məlum olurdu ki, döyüşün ən ağır vaxtlarında Cavad dayım dəfələrlə döyüşçü dostlarını yüz faizlik ölüm təhlükəsindən xilas etmişdi. Axırıncı döyüşündə isə səngərimizin üstünü haqlamış ağır «Panteraya» öz tankını çırparaq alman faşistini məhv etmiş və 40-dan çox əsgər və zabitimizi ölümdən xilas etmişdi. Qəzetlərdəki məqalələrdən məlum olurdu ki, ona dostları «Qafqaz pələngi» deyər və onunla fəxr edərmişlər.

Bu «qara kağız»dan sonra babam heç vaxt ürəkdən gülmədi, eyni açılmadı.

Həmin ərəfədə bir gün cümə namazından xeyli keçmiş qapı zəngi çalındı. Qapını açdım, 50-60 yaşlı bir kişi və yanında 10-12 yaşlı bir oğlan içəri daxil olub soruşdular «Ağa evdədir?». Dedim, xeyr, hələ namazdan qayıtmayıb. O, çiynindəki xurcunu yerə qoyub məndən bir stəkan su istədi. Oğlan da əlindəki torbanı yerə qoydu və üstündə əyləşdi. Mən onları otağa dəvət etdim. Kişi suyu içib dedi ki, baban mənim müştərimdir. Mən Maştağadan «Passaj» bazarına becərdiyim meyvə-tərəvəzdən hər gün satışa gətirirəm. Baban gözəl insandır. Mən onunla olan dostluğumla fəxr edirəm. Bir neçə gün bundan əvvəl o mənə dedi ki, Meşədağa, mənə bir az kənd torpağı gətir, oğlum Cavadın əsgər getməmişdən bir qədər əvvəl düzəltdirdiyi iki taxta ləkin içində onun sevdiyi gülləri əkəcəm. İndi mən və oğlum torpaq gətirmişik. O taxta yeşikləri göstər, bu torpaqları ora boşaldaq. Və bir qədər də qərənfil və gülxətmi toxumları gətirmişəm. Bunları ona verərsən, özü əkər.

Söhbətin bu yerində Babam gəlib çıxdı. Babam qonaqlarla çox səmimi görüşdü. Oğlanı bağrına basıb üzündən öpdü. Uşağın adını soruşmamış dedi ki, mən sənə bu gündən «Cavad» deyəcəm. Uşaq gülümsündü. Atası isə «Ağa, bu nə xəcalətdir bizə verirsən» dedi. Babam cavab verdi: «Onun bu əməli mənə Cavadı xatırlatdı. 5-10 kilo ağırlığında olan torpaq kisəsini dalında Maştağadan bura gətirib. Bu, əsl qəhrəmanlıqdır». Sonra Babam sözünə davam edib dedi: «Cavad yaşıllığı, gülü, çiçəyi çox sevərdi. Baxın, bu şüşəbənddə pəncərələrə, tavana dırmanmış sarmaşıqları o əkib. Əsgər gedəndə mənə dedi ki, Ağa, Qəzənfər bu sarmaşıqların suyunu kəsməsin». Sonra mənzilin qabağındakı 6-8 kv. m-likdə olan taxtabəndə çıxıb Cavad dayımın düzəltdirdiyi, uzunluğu bir metrə yaxın olan taxta yeşikləri göstərib dedi: «Gətirdiyiniz torpaqları bunların içinə tökün, qalanını özüm edərəm. Sonra otağa qayıdıb mənə dedi ki, bu əziz qonaqlarımıza və mənə çay gətir. Kişi çox razılıq etdi və bizi əziyyətə salmaq istəmədiyini dedi. Babam təkid etdikdən sonra onlar əyləşdilər. Mən dördümüzə də çay süzüb gətirib masanın üstünə qoydum. O, yanındakı şkafdan bir torba götürüb içindən dörd ədəd şokaladlı konfet çıxarıb bizə verdi və dedi: «Allah Cavada rəhmət eləsin, ruhu şad olsun. Vətənimiz, xalqımız onu heç vaxt yadından çıxarmayacaq».

İndi, doğrudan da, bu gün qələbənin 79-cu ilində biz onu həmişəki kimi xatırlayırıq.

İndi sizə danışacağım həqiqətə oxşamayan hadisə 1970-ci illərin ortalarında baş vermişdir.

Səhər saat 9:00 radələrində işə gələndə İnstitutumuzun giriş qapısının ağsında bir neçə əməkdaşın həyəcanlı vəziyyətdə olduğunu gördüm. İnstitutun partiya təşkilatının ideoloji işlər üzrə birinci müavini olduğumdan hər işə qarışırdım. Yaxına gəlib gördüm ki, laboratoriyamızın əməkdaşı, texniki 48-50 yaşlı Tavadov Boris stulun üstündə əyləşib iki əli ilə qarnını ovuşdurur və bərkdən qışqırır. Dedim, Boris, bu nədir, nə olub sənə? İnstitutun gecə qarovulçusu dedi ki, 10-15 dəqiqə olar gəlib, bu vəziyyətdədir. Ha deyirəm, təcili yardım maşını çağıraq, qoymur.

Götürüb Neftçilər Xəstəxanasına zəng etdim və təcili maşın yollamalarını xahiş etdim. İşlədiyim İnstitut Ağa Nemətulla küçəsində yerləşdiyindən (Ağa Nemətulla 39) 15 dəqiqə keçməmiş təcili yardım maşını gəlib çıxdı. Onlar Borisi və onu müşayiət etmək üçün laboratoriyanın mənim dediyim iki əməkdaşını götürüb xəstəxanaya getdilər. İki saat keçməmişdi ki, xəstəxanadan zəng edib dedilər ki, Boris kor bağırsağın peritonitindən dünyasını dəyişdi.

Borisin ata-anası, ordudan təzə təxlis olunmuş 40-42 yaşlı təyyarəçi qardaşı Albert öz qaydaları üzrə dəfn mərasimini keçirib xatirə süfrəsi açdı. Adət üzrə, biz hamımız orada iştirak etdik. Borisin qardaşı polad cüssəli, sağlam görünüşlü, sürəti səs sürətindən artıq olan keçmiş hərbi təyyarəçi idi. Məclisin axırında Albert mənə yaxınlaşıb dedi: «Qəzənfər Əliyeviç, sizdən bir xahişim var. Mən istefaya çıxmış polkovnik-leytenantam. Yaşadığım ev Nərimanov kinoteatrının yaxınlığındakı beşmərtəbəli binadadır. Xahiş edirəm, mümkündürsə, məni Borisin yerinə texnik vəzifəsinə götürün».

Doğrusu, bu xahiş mənə çox təəccüblü göründü. Dedim, Albert, bu yazığın qırxı hələ çıxmayıb, sənin ürəyin necə qəbul edə bilər ki, doğma qardaşının yerini tutasan? O isə əvəzində dedi, Qəzənfər Əliyeviç, bunlar hamısı şərti şeylərdir. Mən işlədiyim müddətdə dəfələrlə ölümlə üzləşmişəm. Və hər dəfə də Allah məni saxlayıb. Mənim də əcəlim tamam olanda gedəcəyəm. Xahiş edirəm, mənim sözümü yerə salmayın. Mənim pula ehtiyacım yoxdur, yaxşı təqaüd alıram. Sizə söz verirəm ki, maaşımın hamısını Borisin ailəsinə, uşaqlarına verəcəyəm.

Dedim, yaxşı, qoy bir-iki gün fikirləşim, rəhbərliklə məsləhətləşim, razılıq versələr, sənin arzunu yerinə yetirərik.

Belə də oldu. Neçə vaxt idi ki, Albert işə gəlir, laboratoriyanın emalatxanasında verdiyimiz tapşırıqları yerinə yetirirdi. Onun çox gözəl əl qabiliyyəti və elektrotexnika sahəsində sərişdəsi var idi. Bir gün nahar fasiləsində o, təkid edərək məni və onunla işləyən iki mühəndisi evinə dəvət etdi. Həyat yoldaşı Tamara masanın üstünə müxtəlif salatlar düzmüşdü. Albert bir dənə albom gətirib özünün həyat yolunu əks etdirən fotoşəkilləri göstərməyə başladı. Dəftər vərəqi boyda olan bir şəkildə 10-12 oğlan və iki qız təyyarəçi geyimində idi. Dedi, bu, müharibədən əvvəl «Dinamo» cəmiyyətində yaradılmış DOSAAF SSSR-də (Добровольное общество содействия армии, авиации и флоту СССР) təyyarəçilik kursuna yazılan uşaqların şəklidir. Orada Cavad dayıma oxşayan bir oğlanın şəklini göstərib soruşdum, bu kimdir?

O, fotonun arxa tərəfini çevirib ad-familya yazılmadığını görüb dedi, adı yadımda deyil, amma o da müharibədə iştirak etmiş təyyarəçi olmuşdu. Albert o xanımların və mən göstərdiyim oğlanın təyyarəçi olmaq arzularından elə hərarətlə danışırdı ki, adam məəttəl qalırdı. Dedi, amma o oğlana mandat komissiyası təyyarəçi olmağa icazə vermədi.

Demişdilər ki, sənina atan din xadimidir. Sənə təyyarə etibar etmək olmaz. Bir şey olan kimi ya İrana, ya Türkiyəyə uçub gedərsən.

Mən ona deməsəm də, əmin oldum ki, bu, mənim Cavad dayım imiş. Mən Albertə dedim ki, bu şəklin surətini çıxar, ver mənə.

Müharibə başlayanda və dayım ordu sıralarına çağrılanda Tiflisdə qısamüddətli tankçı kurslarına daxil olmuş və leytenant vəzifəsində tank komandiri təyin edilmişdi. Onun sonrakı qəhrəmanlıqları da bundan sonra başlanmışdı.

Sonralar vaxt keçdi, bu söhbət yaddan çıxdı və Albert də 50 yaşı olmamış ürək infarktından elə iş yerində vəfat etdi. Allah günahlarından keçsin.

Babam torpağın gətirildiyinin səhəri günü həmin taxta yeşiklərin birində qərənfil, badi-səba, gülxətmi və bir şitil də ətirşah gülü əkdi. O biri yeşikdə isə reyhan, nanə və bir də balva gülü adlanan gül əkdi. Bu ləklərə su verib mənə dedi ki, bir gündən bir bu yeşiklərə axşamüstü şırnaqla su ver.

Bir həftə keçməmiş səpilən toxumlar cücərməyə başladı. Ətirşah və balvagülünün də şitillərinin tutduğu hiss olunurdu. 10-15 gün keçməmiş babam ətirşahın bir yarpağını qoparıb oxuduğu «Quran»ın yanına qoydu və dedi: «Cavadın göndərilmiş əşyalarının içində bir dənə qurumuş ətirşah yarpağı var idi. Görəsən, Cavad onu haradan tapıbmış... O, evdə olanda da ətirşahı çox sevirdi. Allah rəhmət eləsin. Mən ölənə kimi o gülü bəsləyəcəyəm».

Elə də oldu. 1952-ci ilin aprel ayının 11-də babam qəflətən dünyasını dəyişdi. Heç bir ay keçməmiş həmin ətirşah da qurudu. Onu mən kökündən çıxarıb aparıb babamın Çəmbərə kəndindəki məzarı üstünə qoydum. Allah hər ikisinə rəhmət eləsin.

İndi dünyanın əksər adamları ekologiyadan, yaşıllıqdan, dünyanı abadlaşdırmaqdan söhbət salanda mən bu iki gözəl insanın təbiətə vurğunluğunu yadıma salmaya bilmirəm. Oğlum hər il Şüvəlandakı bağ evinin həyətində meyvə ağacları ilə bərabər müxtəlif dekorativ ağaclar da əkir. 2002-ci ildə bu bağı alanda həyətimizdə bir əncir, iki tut və bir-iki də üzüm meynələri var idi. İndi bağımız yaşıllığa qərq olub. Bütün bağ sahiblərinə müraciət edərək deyirəm, bacardığımız qədər yaşıllığı artıraq, bununla biz vətən uğrunda həlak olan övladlarımızın xatirəsini əbədiləşdirmiş olarıq.

P.S. Bu məqaləni kompüterdə yığan nəvəm Dilarə Qurbanovanın mənim Cavad dayımla bağlı xatirələrim əsasında 11 fevral 2017-ci il tarixində Facebook sosial şəbəkəsində paylaşdığı bu yazını sizə təqdim edir və hörmətli Mədinə xanımdan onu dərc etməsini xahiş edirəm:

Babam bütün həyatını neft sahəsində elmi fəaliyyətlə məşğul olub. «Vışka» qəzeti onun üçün çox önəmlidir və bu qəzet bu yaxınlarda öz 90 illiyini qeyd edəcək. Bununla əlaqədar, Babamın həmin qəzetlə ilk tanışlığı, o qəzetin onun üçün və ümumiyyətlə, insanlar üçün önəmi və digər maraqlı məqamları özündə əks etdirən məqaləsi 4-cü gün dərc olunacaq.

(Sonu səh. 9)